# GƏL, GEDƏK YURDA SARI

Samil Əhmədov, bir bayatı çağırdın. Səsin yandırdı, yaxdı məni. Gəncliyindəki odun-alovun səs içində yanıb-qovrulub, təmkin donuna düşüb. Ağır, ləngərli axar alıb, könlümü havalandırdı. Sənin gözlərinə dönüm... Məni vəcdə gətirdin.

Bilmirəm, nə yazacam. Amma yazmaq istəyirəm. Söz gələcək, gəlməyəcək? Necə gələcək, onu da deyə bilmərəm. Hələlik dolmuş bulud kimiyəm. Başımın üstündə şimşəklər oynayır, ildırımlar çaxır.

Qarabağ toylarının şahənşahı olan, hörməti, izzəti ala buluda qalxmış Şamilin ekrandan eşitdiyim: “Elə bilirəm səsim Qarabağın, Cəbrayılın hansısa bulağının üstündə düşüb qalıb. Hansısa adlı Cəbrayıl kəhrizlərinin başında müntəzir məni gözləyir. Bilmirəm, bəlkə, bir qaya dibində qalıb?! Bəlkə, bir şəhid baş daşına keşik çəkir. Cəbrayıla qaydanda o yerlərin hamısını birər-birər gəzəcəm, axtaracam, bəlkə, səsimi tapdım. Nə bilmək olar, bəlkə, səsim elə özü məni gördü, tanıdı, özü üstümə yeridi... “Ya qismət” sözü məni yerimdən elədi.

Haqq var bizdən ucada. Mən o sözləri elə Şamilin özünə yazmaq istəyirdim. İnanıram ki, Nəsiminin soyulma zamanı fəryadını, Qurbaninin Diri dağına son nəfəsdə baxıb çağırdığı bayatını... ruhun istəyilə təzədən çəkib dinləmək olar...

Axı deyirlər, təbiətdə heç nə itmir. İnanıram ki, Şamilin səsi bizi o göydə, o yerdə - Şamilin izi yaşayan xatirələrdə gözləyir.

Od məni götürdü. Ha illah etdim bayatı ovqatından çıxa bilmədim. Müdriklər deyiblər ki, qismətə nə tələs, nə də gecik. Bəlkə, elə Şamil üçün sözüm bayatı ovqatında qismətə tutulub, niyə qaçım?! Yazı gəldi, nə gəldi. İlk dördlük - bir gün əvvəl yazdığım dörd misra məni cazibədə saxlamışdı.

***Qabağa dur, birinci dər,***
***Söz içindən bir inci dər...***
***Ağız büzən hər kimdisə,***
***Könül yıxar, dil incidər...***

Yazdığıma epiqraf kimi götürmək istədim. Amma gördüm yenə yox. Bu, dördlükdür. Səkkizlik heca üstündə qurulub. Ovqatım isə bayatı istəyir. Beləcə, bayatılar məni əsir etmiş zəncir halqaları kimi sıralandı.

Beləcə, bir bayatı-poema yazıldı. Onu da deyim ki, Azərbaycan ədəbiyyatında bayatı-poema janrı çox nadir örnəklərdəndir. Mənə elə gəlir ki, ilk bayatı-poemanı Sarı Aşıq yaradıb. Təəssüf ki, bu faktı tədqiqatçılar diqqətdən qaçırıb. Axı Sarı Aşığın demək olar ki, bütün poemaları Yaxşı ilə sevgi macərasının əks-sədasıdır. Özü də hər bayatı bir əhvalatla bağlı çağrılıb. Məntiqi ardıcıllıqla düzüləndə bitkin poemanın süjeti aydın görünür.

Bayatı-poema janrında mənim bildiyimə görə ikinci dəyərli nümunənin müəllifi Hüseyn Kürdoğludur. Görkəmli alim Qəzənfər Paşayevə həsr olunmuş “Tovuzum mənim - oğuzum mənim” əsəri məhz bayatı-poema janrında qələmə alınıb.

Bir daha bir az çəkingənliklə olsa da, “Gəl, gedək yurda sarı” poemamı bu janrın üçüncü örnəyi hesab edirəm. Əsərin əsas obrazı Qarabağda, elə indiki musiqi ictimaiyyəti arasında da yaxşı tanınan, gəncliyində parlaq səsi ilə məclislərin şahı olan Şamil Əhmədovdur.

Onun zəngin aləmi var. Azərbaycan poeziyasının ən yaxşı örnəkləri ilə insanları saflığa, duruluğa səsləyir. Yolunun üstünə çıxan kimsə, Şamil bulağından su içməmiş ötmür; səsini dinləyir, sözünü eşidir.

Hal əhli olan insan övladı onun səsindəki yandırıcı ahınamanın, yandırıcı kədərin hardan gəldiyini də yaxşı bilir.

Şamilin həyatı Azərbaycan xalqının, Qarabağın son qərinəlik həyatıdır desək, səhv etmərik. Əgər bütöv Qarabağı faciəsi ilə birgə kiminsə obrazında görmək istəyiriksə, ön sırada, elə bilirəm ki, Şamil gələr.

Şamil əslən Cəbrayılın Əhmədli elindən - Keyxalı obasından olsa da, Füzulinin Qaradağlı kəndində 1954-cü il yanvarın 16-da doğulub. Orda da orta təhsil, 1970-75-də APİ-də ali təhsil alıb. 1987-də Kremlin Qrultaylar Sarayında nəhəng imperiyanın 70 illik yubileyində Azərbaycanın incəsənət ustalarının çıxışında yeganə xanəndə olub. Dünyanın demək olar ki, bütün hökmdarlarının dinləyici olduğu konsertin Azərbaycandan xanəndə kimi təmsilçisi Şamil idi. Səhnələşdirilmiş Azərbaycan toyu beş dəqiqə məhz onun əsas obrazı ilə səhnəyə çıxmışdı. Yolu haralardan keçməyib...

Hər ömür dünya xalısında bir zərrə qədər işıqdır. Əgər işıqdırsa, onda Şamil ömrü də işıqdır. Haqdan gələn işıqlar sönmür.

...Axı yuxarıda demişdim: Bizdən ucada Haqq var!

**Müəllifdən.**



## bayatı-poema

**I hissə**

A dərdim, sözə çıx gəl,
Dağdan yen, düzə çıx gəl...
Hardasan itgin səsim,
Gəlmişəm üzə çıx gəl...

A dərdim, bağlara bax,
Bu qoca ağlara bax...
Üzünü döndər bəri,
Sinəmdə dağlara bax...

Səs içində sanı gör,
Diri gözlə danı gör...
Səsi sinə dağlayan,
Şamilini tanı gör...

Dərdimiz yurda qaldı,
Ağ yolda , Surda qaldı...
Ayrılığı biz çəkdik,
Ulamaq qurda qaldı...

Tər sulasa bitər gül,
Gül üstündə bu tər gül...
Bayatını əkərəm,
Misra misra bitər gül...

Yağış yağmaz, kol bitməz,
Kəsildisə qol bitməz,
Dünyanın belindədi,
Ha gedəsən yol bitməz...

Günün getdi qayıtmaz,
Dövran ötdü qayıtmaz
Hər bir gedən qayıdar,
Ömür getdi qayıtmaz...

Yaxşı baxsan, bələn yol,
Üzümüzə gülən yol,
Bizi yurda qaytarar,
Qarabağdan gələn yol...

Şamilin səsi göydə,
Səsi, nəfəsi göydə,
Yiyəsini axtarır,
Canı, qəfəsi göydə...

Salam ver hörmətliyə,
Yol göstər ismətliyə,
Hərdən oxu, ay Şamil,
Yol gedər Əhmədliyə...

Deyirsən Qızmeydan var,
Səsinə səs meydan var,
Qələmi sözə çəkdim
Mənə də söz meydan var...

Ocağı an yandırar,
İnadı qan yandırar,
Oxuyanda ah çəkmə,
Od çıxar, can yandırar...

Həsrət çəkən bir gülsən,
Susuz yanan sünbülsən,
Cingirbulaq üstündə
Nalə çəkən bülbülsən...

Vətənin adı gəlsə,
Doğması yadı gəlsə,
Səs dillənər, can alar,
Şamilin adı gəlsə...

Toy olsun, düyün olsun,
Öz yerin, göyün olsun,
Ürəklərin içində,
Sarayın, öyün olsun...

Şamilin odu közlər,
Ocağı odu gözlər...
Min köç ötə yanından,
Xan Çinar səni gözlər...

Dərdin burda Eşnədi,
Qan aparar deş nədi?!
Sən bayatı çağırdın,
Dedim köhlən kişnədi...

Səsinə dağ oyandı,
Su durdu, sel dayandı...
Eşidənlər dedilər,
Şamilin dili yandı...

Gün doğar dan açılar
Dərdinə can açılar...
Bağlı qalan qurd ağzı
Bayatıdan açılar...

Dağların pəri qalıb,
Gül üzü bəri qalıb,.
Çərxi sınmış fələyin
Quruca pəri qalıb...

Od yana, ocaq gülə,
Baxasan ocaq gülə...
Ağoğlana qalxasan
Sevinə, ocaq gülə...

Kəhrizin axan yeri,
Kankanın baxan yeri,
Su verməsən od tutar,
Həsrətin yaxan yeri...

Şamil, oxu butaya,
Dərviş payı butaya...
Səsindən körpü düşsün
Araz üstən bu taya...

Şamil dərdin diridi,
Savalandı, Diridi...
Dərdinə əlac yenə,
Xudafərin piridi...

Qaradağın diləyi,
Qarabağın küləyi,
Şamil, sənə yetdimi
Savalanın gileyi?..

Təbrizim haya gələr,
Savalan saya, gələr...
Hardasan, ay sənətkar,
Xanəndə toya gələr...

Bələn üstə bərə var,
Dağ dibində dərə var,
Ayrılığın ütdüyü
Neçə nəsil, törə var...

Səfər eylə, qağacan,
Doğudan Batıyacan,
Göy qurşağı yolumu,,
Ağrıdan Şahdağacan...

Şamil, sözüm soyudu
Bu da Dahar boyudu
Gedək Çaxmaq boyunca,
Bulaqların toyudu...
Burda bir qalacıq var
Yerində qal, acıq var,
Yurd yeri diş diş qalan,
Kurqanlı Qalacıq var...

Hovuslunun kürməyi,
Pendirə tut dürməyi,
Bəxt bilə, Tanrı yaza
Belə dövran sürməyi...

Yolumuz xəyal yolu
Könlümüz soyal yolu,
Gəl gedək, bəlkə tapdıq,
Şıxlara o yal yolu...

Bozarmış Gordu baba,
Uladı qurdu baba,
Közərmiş Xələf dağı,
Ağlardı yurdu, baba...

Sözü dən-dən əkəsən,,
Dərdinə dil tökəsən,
Ay Şamil, burda gərək,
Səsi zilə çəkəsən...

Durnası qatar düzü,
Həsrəti yatar düzü
Neçə yerdən çat verib,
Sinəmin Tatar düzü...

Gəl çıxaq Siriyə bir,
Dərdimiz əriyə bir,
Söykənək Tey dağına
Boylanaq Diriyə bir...

Söz gəldi dildən keçdi,
El gəldi dərddən keçdi,
Gözün aydın, ay Şamil,
Karvan körpüdən keçdi.

Sən adına yanmısan,
Fəryadına yanmısan;
Segahına bürünüb
Eşq oduna yanmısan.

Dönək Gəyənə sarı,
Dolu döyənə sarı.
Düyünü sinəsində
Dərdi öyənə sarı.

Çayyataqda kəhriz var,
Yolu itməz bir iz var.
Kədərli nəğməsində
Bizə tənə-təhniz var.

Dildə bəndin yeri var,
Sözə qəndin yeri var.
Qoşabulaq - Dəmşalaq
Neçə kəndin yeri var.

Bu da Şahvəlli yolu
Qonağı, bəlli yolu.
Eli şirin, məzəli
Bir qaravəlli yolu.

Tüstülü sobaları
Hay-küylü çabaları.
İsaxlı, İsmayıllı
Keyxalı obaları.

Dərdə qardaş əyərik,
Həzin yaddaş əyərik.
Xanəndə Hüseynin
Yurduna baş əyərik.

Adı addan çıxarmı,
Sözü daddan çıxarmı
Dilində istiot-duz,
Qabil yaddan çıxarmı?

Qəzəbli, kinliyə bax,
İmanlı, dinliyə bax.
Təpənə çıx, ay Şamil,
Qovşudlu, Tinliyə bax.

Yandan ötsək el küsər,
Qonaq olsaq dil əsər.
Şair Mirzə Mirimli
Xınalı bir qoç kəsər.

Könlüm eşq ərzəsidi,
Söz Diri gürzəsidi.
Pay göndərən Tanrıdı,
Xələfli mirzəsidi.

***Əli Rza XƏLƏFLİ***
***26.10.2021***